**Rauf Tofiq oğlu MƏMMƏDOV**
Qərbi Kaspi Universiteti
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
E-mail: raufsalam1@rambler.ru
https://orcid.org/0000-0002-5136-677X

# PARSLARIN MƏNŞƏYI VƏ MÜHACİRƏT TARIXI

**Xülasə:** Məqalədə, Hindistanda məskunlaşan parsların (zərdüştülər) Hindistana mühacirət tarixindən və onun əsas səbəblərindən, onların orada bir icma kimi formalaşmasından və tarixi birliklərini təmin edən amillərdən, parslarla yəhudilərin oxşar sosial-tarixi bənzərliklərindən, parsların Hindistanda modernləşmə prosesində rolundan və ingilislərin parslarla əlaqələrindən, onların demoqrafik strukturu və təbii artım səviyyəsindən bəhs olunur. Həmçinin, parsların etnik mənşəyi məsələsi tarixi faktlar və genetik araşdırmalar səviyyəsində təhlil olunur, pars anlayışının etimologiyası araşdırılır.
**Açar sözlər:** Hindistan, parslar, zərdüştülük, mədəniyyət, diaspora, dini icma.

**UOT -** 1(091); 930.85.
**DOI:** doi.org/10.54414/kpde3583

**Giriş**

Bu gün dünyada ümumi sayları təqribən 150 min nəfər olan zərdüştülər – Yaradanın (Ahura) tək olduğunu, Zərdüştün (Zaratuştra Spitama) peyğəmbər olduğunu və ilahi vəhylərin (Qata) Avesta adlı müqəddəs kitabın bir qismində cəmləşdiyini qəbul edən və təqribən üç minillik bir tarixə malik olan dini icma kimi tanınırlar. UNESCO Təşkilatı 2003-cü ili "Zərdüştülərin ili" elan etmiş və zərdüştülük mədəniyyətinin 3000 illiyini möhtəşəm şəkildə qeyd etmişdir.

Müsəlman hüququnda zərdüştülər məcusi adı altında, ilahi mənşəli din daşıyıcıları kimi Əhli-Kitab (xristian və yəhudilərlə birlikdə) statusu altında tanınmışlar. Onlar digər monoteist (tövhid) dinlərə mənsub olanlar kimi, öz dini ayin və mərasimlərini həyata keçirərək tək Tanrıya (Ahura) ibadət edirlər.

Əksər insanlar zərdüştüləri atəşpərəst kimi tanıyırlar. Çünki onlar Ahuraya yaxınlaşmaq və Onunla yeganə rabitə qurmaq vasitəsi hesab etdikləri atəşə həddən artıq böyük ehtiramla yanaşır və hətta onu müqəddəsləşdirirlər. Lakin, zərdüştülər atəşpərəstlərdən fərqli olaraq atəşi inanc obyekti deyil, inanc vasitəsi və rəmzi hesab edirlər. Xristianlar üçün xaç, müsəlmanlar üçün Kəbə, yəhudilər üçün Hz. Davud ulduzu nədirsə, zərdüştülər üçün də atəş odur.

Zərdüştülər – Zərdüştü özlərinin peyğəmbəri hesab etdikləri üçün, Qərbdə daha çox zoroastrians kimi tanınırlar (yəhudilər Müsəvi, xristianlar İsəvi adlandırılan kimi). Avropa alimləri zərdüştülərlə və onların müqəddəs kitabı olan Avesta ilə tanış olduqları dövrdən başlayaraq (18-19 əsrlər), onları zoroastrians, dini təlimlərini isə zoroastrianism kimi tanıtmışlar. Məhz, bunun təsiri ilə bəhs etdiyimiz termin İranda və digər ölkələrdə istifadə olunmağa başlamışdır. Çünki 18-19 əsrlərə qədər onlar dünyada məcusi adı altında tanınmışlar.

Yunanlar və qədim dövrün əksər xalqları Əhəmənilər və Sasanilər sarayında xidmət edən yüksək rütbəli ruhani təbəqəsini və onların təbliğ etdikləri dini təlimi "maqus" adlandırmışlar. Müsəlmanların bu dini təlimə və onun tərəfdarlarına münasibətdə istifadə etdikləri *məcusi* termini də ("maqus" termininin ərəbləşmiş şəkli) buradan irəli gəlmişdir.

Əhəmənilər, Sasanilər dövründə bu və buna bənzər təlimin davamçıları zərdüştü və ya pars (fars) kimi deyil, Mazdayasna təliminin ("Müdrikə itaət təlimi", yəni "Tanrı Müdrik (Mazda) Ahuraya itaət təlimi") və bu təlimi təbliğ edən *maq* ruhani təbəqəsinin adıyla məşhur olmuşlar (maqus, məcus). Mazdayasna təlimi - zərdüştülüyün, onun müxtəlif sektalarının və başqa ari inanclarının sintezini təşkil edən və maqlar tərəfindən təbliğ olunan bir inanc sistemi olmuşdur. Halbuki, bu barədə birmənalı fikir söyləmək çətindir. Çünki Əhəməni və Sasani mənbələrində Zərdüşt peyğəmbərin adı kölgədə qalmış və maqlar yeni dinin yaradıcıları kimi önə çıxmışlar. Müasir

zərdüştülər də, tarixdən gələn bu ənənələrin əsas daşıyıcılarıdırlar.

Müasir dövrdə Hindistanda və İranda yaşayan zərdüştülər özlərini ənənəvi olaraq pars, fars kimliyi ilə eyniləşdirməyə üstünlük verirlər. Çünki Əhəmənilər və Sasanilər dövründə Parsiana bölgəsi Mazdayasna təliminin əsas mərkəzlərindən biri sayılmış və burada sinkretik dini-etnik şüurun təməli qoyulmuşdur. “Pars” adı altında formalaşan sinkretik dini-etnik kimliyin ən üstün kimlik kimi təqdim olunması (behdin - ən üstün dinə və kimliyə sahib olan) İran milli mədəniyyətinin İslam mədəniyyəti daxilində xüsusi yer tutmasına səbəb olmuşdur.

Müxtəlif dinlərdə olduğu kimi, zərdüştü icmasının daxilində də tarixən dini məsələlərə münasibətdə bir-birindən fərqli yanaşmalar nümayiş etdirən müxtəlif təriqətlər yaranmışdır. Onlara həm qədim dövrlərdə (mazdaizm, maqizm, mitraizm, zurvanizm), həm də müasir dövrdə (parsizm, farsizm) rast gəlmək mümkündür. Orta əsrlərdən başlayaraq Hindistan zərdüştülərinin parsi və İran zərdüştülərinin farsi ənənəvi məktəbləri arasında ixtilaflar mövcuddur. XX əsrdə Avropa zərdüştüləri timsalında yaranan islahatçı zərdüştü məktəbi onları inkar edən yeni bir cərəyan kimi ortaya çıxmışdır. Bu gün, hər üç məktəbi və ya zərdüştülük məzhəbini qəbul etməyən yeni cərəyanlar da mövcuddur. Bu cür fərqli yanaşmaların meydana çıxması əslində təbii bir haldır. Çünki üç min illik bir mədəniyyət tarixinə malik olan icmanın daşıdığı ənənələr tarixi-mədəni proseslərin təsirindən olduğu kimi mühafizə oluna bilməzdi. Biz, bunun ən bariz nümunəsini İran və Hindistan zərdüştüləri arasındaki fərqlərdə daha aydın görürük.

Bu gün dünyanın müxtəlif yerlərində yaşayan və özlərini zərdüştü adlandıran insanların ümumi sayı təqribən 150 min nəfərdir. Onlardan təqribən 20 min nəfəri İranın fərqli bölgələrində (Yəzd, Kerman, Tehran) və 60 min nəfəri Hindistanın müxtəlif yerlərində (Qucarat, Surat, Bombey) dini icmalar şəklində yaşayırlar. Yerdə qalanları dünyanın müxtəlif yerlərinə yayılaraq diasporalarda təşkilatlanmışlar. Lakin, bu statistika nisbi xarakter daşıyır. Onların sayı ilə bağlı təqdim olunan fərqli rəqəmlər bunu deməyə əsas verir. Həmçinin, zərdüştülərin bir ölkədən başqa ölkələrə miqrasiyası, onların başqa dinləri qəbul etməsi və digər səbəblər onların sayları barədə konkret rəqəm söyləməyə imkan vermir. Ancaq, ümumi mənzərə zərdüştülərin sayının getdikcə azaldığını və onların qloballaşma mühitində tamamilə ortadan qalxmaq təhlükəsi ilə üzləşdiklərini göstərir. Bu məsələlər, zərdüştü icma və diasporlarını narahat edən əsas problemlərdir.

## 1. Hindistandakı parslar kimdir?

Parslar - Xorasan ərazisində yerləşən Səncan məntəqəsindən (Türkmənistanın Marı şəhəri yaxınlığında yerləşir) Hindistanın Qucarat ərazisinə təqribən min il əvvəl köçən və bu günədək əsas qismi orada yaşayan zərdüştülərdir.

Pars (parsi) – Hindistanda yaşayan zərdüştülərin etnokonfesional kimliyini təsdiq edir. Hindistan pars icmasının liderlərindən olan Soli Sorabci yazır: “Pars anlayışı bir irqi və ya etnik məna kəsb etmişdir. Tədricən, bu anlayış ümumi dinin ilkin və sadə mənasını üstələmiş və ümumi etnik mənşəni ifadə etməyə başlamışdır.” [19, 5-6].

Soli Sorabcinin ifadələrində böyük bir tarixi həqiqət vardır. Onun sözlərindən belə anlaşılır ki, təqribən min il əvvəl Hindistana köçən zərdüştülər ilk dövrlərdə özlərini “dinin ilkin və sadə mənası” ilə tanıtmış və bir müddətdən sonra “ümumi etnik mənşəni ifadə edən” *pars* kimliyi ilə tanınmışlar. Deməli, Hindistan zərdüştüləri əvvəllər “pars” kimi tanınmamış və sonradan bu kimlik ilə tanınmışlar. O zaman, Hindistanda yaşayan zərdüştülər özlərini nəyə görə və nə vaxtdan başlayaraq “pars” adlandırmışlar? “Pars” etnik kimliyinə sarılanadək, onları Hindistanda hansı ad altında tanımışlar?

Xorasan ərazisindəki Səncan məntəqəsində yaşayan zərdüştülər etnik mənsubiyyətindən asılı olmayaraq, ümumi ari mədəniyyətinin daşıyıcıları hesab olunmuşlar. Onlar Sasanilər dövründə pars kimi deyil, yaşadıqları yerin adı (Sancani, Mervi, Xorasani), mənsub olduqları tayfanın adı (məsələn, saq) və ümumi mədəniyyətin təmsilçiləri (ari, məcusi, zərdüştü) kimi tanına bilərdilər. Çünki “pars” kimliyi yanlız “Pars” (Parsiana) bölgəsində yaşayan əhaliyə aid idi.

Hindistanda qeyri-hindliləri ənənəvi olaraq Xorasani (əcəmi, miqrant, qeyri-hind) adlandırırdılar. Bu qədim dövrlərdən başlayaraq

orta əsrlərdə də Xorasan ərazisindən Hindistana olan böyük miqrasiyalarla bağlı meydana çıxmışdır. Sasanilər dövründə və sonrakı dönəmlərdə türk xalqları kütləvi şəkildə Hindistana köç etmiş və orada imperiyalar qurmuşlar. Orta əsrlərdə də bir qrup zərdüştünün bu miqrasiyalara qoşulması mümkün olan bir hadisə idi. Hindistana gələn digər miqrantlar kimi zərdüştilər də "Xorasani" idi. Bu baxımdan, onların uzun müddət Hindistanda Xorasani kimi tanınması mümkün idi.

Müxtəlif dövrlərdə Hindistana miqrasiya edən insanların böyük bir qismi yerli xalq arasında tədricən əriyərək hindləşmişlər. Onlara əsasən Sasanilər dövründə Orta Asiyadan Hindistana miqrasiya edən tanrıçı türk eftalitləri misal göstərmək olar. Onlar, Hindistanda bəyliklər və xanlıqlar quran racputiləri kimi tanınmışlar.

İkinci böyük miqrasiyada Hindistanı fəth edən müsəlman türklər olmuşlar. Hindistana gələn zərdüştülər onlarla eyni coğrafiyadan (Xorasan) və hətta, eyni etnik mənşədən olmaları da mümkündür. Məsələn, zərdüştülərin yaşadıqları Səncan məntəqəsi adı, onların etnik mənşəyi ilə bağlı ola bilərdi. Bu toponim əslində Saq tayfalarının etnonimi ilə bağlı ortaya çıxa bilərdi. Çünki mənbələrdə Səncan əksər hallarda Sanqan ("nq" – burun "n" səsini ifadə edir) kimi də tələffüz olunur ki, bu da onun "saq" kökündən olduğuna dəlalət edir (saq+qan=saqan "saqların məskəni"). Bunu həm həmin ərazilərdə saq, skif tayfalarının geniş yayılması və həm də həmin bölgə əhalisinin müasir geneoloji göstəriciləri təsdiq edir (bu barədə sonra bəhs edəcəyik). Lakin, onları bir-birindən fərqləndirən əsas cəhət fərqli əqidələrə malik olmaları idi. Zərdüştülər bu miqrantların, həmçinin, yerli əhalinin içində əriməmək və öz kimliklərini qorumaq üçün özlərini dini kimlikləri ilə tanıtmışlar.

X əsrdə parsların Hindistana gəlməsi və oradakı mühitə inteqrasiya olunması "Qisseyi-Səncan" əsərində əks olunur. Bu əsərdə bildirilir ki, Qucaratın hökmdarı (raca) Cadi Rana onlara bəzi şərtlər əsasında sığınacaq verdi. Bu şərtlərə görə, zərdüştülərin dini əqidələri ölkədə heç bir qarışıqlığa səbəb olmamalı, onlar öz dillərində deyil, yerli dildə danışmalı, onların qadınları yerli hind qadınları kimi sari geyinməli, axşam çağında toy mərasimləri keçirməməli, istənilən yerdə silah və sursatla gəzməməli idilər. Zərdüştü kahin (mobed) racanın bu şərtlərini qəbul etdikdən sonra, ona zərdüştülərin Günəş, Ay, inək, atəş və suya hörmətlə yanaşmalarından və bəzi mərasimlərindən bəhs etdi. Sonra racanın izniylə zərdüştülər yerləşdikləri yerdə vətənlərində etiqad etdikləri və qeyri-zərdüştülərin girməsini qadağan etdikləri Atəşi-Bəhram (Veretraqna, Varahran, Vahran, Bahram) məbədinin əsasını qoydular. Bu məbəd, bütün zərdüştüləri bir araya gətirsə də, sonralar onlar tədricən hissə-hissə Hindistanın müxtəlif yerlərinə köçdülər. Onlar burada yerləşdikləri ilk ərazini sonralar öz doğma vətənlərinin adıyla Səncan adlandırdılar. Sonra müəllif zərdüştülərin hindlilərlə birgə Hindistana daxil olan Mahmud Qəznəvinin müsəlman ordularına qarşı döyüşlərindən və sonrakı dövrlərdə icmanın həyatında baş verən hadisələrdən bəhs edir [21, 94].

Parsların yerli əhali ilə genetik qarışmasını genetik araşdırmalar da təsdiq edir. 2004-cü ildə bir qrup parslar arasında Quintana-Murci tərəfindən aparılan mitoxondrial (mtDNA) müayinəsi nəticəsində məlum olmuşdur ki, onların mtDNA 25%-i Cənubi Asiyada, xüsusilə Hindistanda geniş yayılan M makroqrupuna aiddir. Bu fakt təsdiq edir ki, əsrlərlə Hindistanda yaşayan parslar yerli hind qadınları ilə evlənmiş və onlar mtDNA-sı vasitəsilə parsların soyunda M makroqrupunun təsiri ilə 25% dəyişiklik (mutasiya) baş vermişdir. Parsların mtDNA (M) ilə İran əhalisinin mtDNA (U7) arasında fərq böyükdür. Müəllif yazır ki, "qalan 75%-nin fars əsilli olduğunu düşündüm." [14, 840]. Lakin, 90 nəfər pars arasında aparılan DNA (Y) araşdırması nəticəsində məlum olmuşdur ki, onların təqribən 39%-i C2a2 (M67), 13%-i isə L2 (M317) haploqrupunun daşıyıcısıdır. Parslar mtDNA (mitoxondrial) göstəricilərinə görə iranlılara deyil, Hindistanın Qucarat əhalisinə daha yaxındılarsa, DNA (Y) göstəricilərinə görə daha çox Yaxın Şərq əhalisinə yaxındırlar.

Hindistanda Baburilər sülaləsinin qurduğu böyük İslam dövlətində zərdüştüləri hindlilərdən fərqləndirən bir statusun olması vacib idi. Çünki zərdüştülər bütpərəst hindlilərdən fərqli olaraq Kitab-Əhli idilər. Şəriət qanunlarına görə, onlar bütpərəst hindlilərdən daha üstün bir statusa malik idilər. Bu statusa malik olmaq

zərdüştülərin də mənafeyinə xidmət edirdi. Bu baxımdan, Baburilərin hakimiyyəti dövründə onlar məcusilər (yəni maqların dini, zərdüştülər) kimi tanınmış və cizyə vergisi verərək öz dinlərini sərbəst yaşamaq hüququna malik olmuşlar. Pars Soli Sorabci "ümumi dinin ilkin və sadə mənası" ifadəsini söylərkən, görünür parsların əvvəllər "məcusi" kimi tanınmasını nəzərdə tutmuşdur. Həqiqətən də, məcusilik orta əsrlərdə və hətta qədim dövrlərdə də zərdüştülük və Mazdayasna dininə mənsub olanların ümumi kimliyini və həmçinin "ümumi dinin ilkin və sadə mənası"nı ifadə etmişdir.

Hindistan məcusiləri nə vaxtdan "ümumi etnik mənşə"ni ifadə edən "pars" kimi tanınmağa başlamışlar?

Hindistanda məcusilərin "pars" kimi tanınması, Baburilər iqtidarının süqutu ilə bağlı ola bilərdi. Çünki şəriət qanunları ortadan qaldırıldıqdan sonra məcusilik statusunun heç bir hüquqi əhəmiyyəti qalmamış və cizyə vergisi ləğv olunmuşdur. Bu dövrdə də zərdüştülər ənənəvi olaraq məcusilər kimi tanınmışlar. İngilis hökuməti Hindistanı işğal etdikdən sonra ölkənin həyatında böyük dəyişikliklər baş vermişdir. Onlardan biri də millətçilik şüurunun ortaya qoyulması idi. Bu siyasət Hindistanda milli və dini zəmində separatçılıq əhval-ruhiyyəsini artırmış, qarşıdurmalar yaratmış və tədricən ölkənin bölünməsinə şərait yaratmışdır. Bu siyasi proseslər zəminində zərdüştülər də öz etnik-milli kimliklərini ortaya qoymaq məcburiyyətində qalmışlar. Buna görə də, onlar özlərini "pars" adlandırmışlar.

Hindistan zərdüştüləri mühacirətdə idilərsə, İranın Pars bölgəsində yaşayan zərdüştülər öz vətənlərində yaşayırdılar. Yəni, yeni dövrdə İran ərazisində zərdüştülərin yeganə mərkəzi Pars bölgəsi idi. Hindistana və dünyanın müxtəlif yerlərinə mühacirət edən zərdüştülərin yeganə vətəni İran və qədim əcdadlarının yeganə varisləri Parsda yaşayan zərdüştülər (yəni parslar, farslar) idilər. Öz milli kimliyini təyin etməyə çalışan zərdüştülər "pars" kimliyini seçməkdən başqa bir seçimə malik deyildirlər. Bu baxımdan, Soli Sorabcinin ifadələri ilə desək, Hindistan zərdüştüləri arasında "dinin ilkin və sadə mənasını" ifadə edən "məcusi" kimliyi "ümumi etnik mənşəni ifadə edən" pars kimliyi ilə əvəz olunmuşdur. Beləliklə, "pars" etnik kimliyi və zərdüştü dini kimliyi arasında bir ziddiyyət ortaya çıxmış və onların bir araya gətirilməsi problemi pars kahinləri üçün "qordiyev düyünü"nə çevrilmişdir.

***

Parsların DNA (Y) göstəriciləri (C2a2 M67) ilə İrandaki zərdüştülərin və ümumiyyətlə, iranlıların DNA (Y) göstəriciləri arasında müqayisə bizə nəyi deyir?

İranda yayılan C2a tipli haploqruplardan (J2a (M410) – 2.8% (İsfahan 27.3%); J2a3 (page 55) 4.8%; J2a3a (M 47) 3.5%; J2a3b (M 67) 2.6; J2a3b (M 530) 6.1%; J2a3b1 (M 92) 1%; J2b1 (M 205) 0.9%; J2b2 (M 241) 0.7%) İran zərdüştüləri arasında ən çox yayılanları C2a3 (PAGE55), C2a3a (M47), C2a3b (M530) haploqruplarıdır (J2a3 (PAGE55) - Tehran zərdüştüləri 23.1 %, Yəzd zərdüştüləri 2.9%, Yəzdin müsəlman əhalisi 6.4%; J2a3a (M47) - Yəzd zərdüştüləri 8.8 %, Mazandaran, Xuzestan və Fars əhalisi 7 %; J2a3b (M530) - Yəzd zərdüştüləri 17.6%, Yəzdin müsəlman-fars əhalisi 17%, Tehran zərdüştüləri 15.4 %. İranda C2a (M410) haploqrupu ən çox İsfahan farsları (23.3%) arasında yayılmışdır (İran türklərində 4.8%, Mazandaranda 6.9%). Bu haploqrupa İran zərdüştüləri arasında təsadüf olunmur. İran zərdüştüləri arasında C2a2 haploqrupuna təsadüf olunmasa da, ona qohum olan C2a3 (PAGE55) haploqrupu Tehran zərdüştüləri arasında 23.1% (Yəzd zərdüştüləri 2.9%, Yəzd farsları 6.4%, İran azəriləri 4.8%) təşkil edir (bu haploqrup ümumi İran üzrə 4.8%-dir). Lakin, Yəzd zərdüştüləri arasında C2a3b (M530) haploqrupu 17.6% (Yəzd farslarında isə 17%, İran türkləri 3.2%), Tehran zərdüştülərində 15.4% təşkil edir (bu haploqrup ümumi İran üzrə 6.1%-dir və İranda C mənşəli haploqruplar arasında ən çox yayılmışdır) [16, 355].

Yəzd zərdüştüləri arasında C2a3a (M47) haploqrupu 17.6%-dir (Yəzd farsları arasında 2.1%-dir). Araşdırmalar göstərir ki, İran zərdüştüləri arasında ən çox yayılan C2a3 (PAGE55) haploqrupu (23.1+2.9=26%), C2a3b (M530) haploqrupu (15.4 +17.6=33%) və C2a3a (M47) haploqrupudur (8.8%). Deməli, onlar arasında C2a3 mənşəyindən olan haploqrupların ümumən 68% təşkil edir. Biz, bu haploqruplara İrandaki digər xalqlarda da təsadüf edirik. Lakin, İran zərdüştülərində C2a3 mənşəyindən olan məlum haploqruplar (68%) üstünlük təşkil edir [16, 356].

Bu baxımdan, C2a3 mənşəli haploqrupların İran zərdüştüləri (həmçinin, İran əhalisi) üçün özünəməxsus olduğunu söyləmək olar. Yəni, İran ərazisində (hətta Yaxın Şərq, Qafqaz bölgəsində) yaşayan hər hansı bir dini və etnik qrupu digər yerli əhalidən fərqləndirən xüsusi genetik bir özəllik yoxdur. Burada, kimin fərdi müstəvidə hansı tayfadan və ya aşirətdən olması qismən müzakirə obyekti ola bilər (əgər o mövcuddursa). C2a3 mənşəli haploqrup bir qrup İran zərdüştülərinin (68%) və müəyyən qism İran əhalisinin əcdadı hesab oluna bilər. Lakin, bu haploqrup 39%-i DNA (Y) C2a2 (M 67) haploqrupuna aid olan parsların, yəni Hindistan zərdüştülərinin əcdadı deyildir. Onların ümumi əcdadı C2a (M 410) haploqrupudur [16, 357].

Parsların təqribən X əsrdə Hindistana Türkmənistan ərazisindən (Səncan) köçdüklərini nəzərə alsaq, onda onların DNA (Y) göstəricilərinin müasir Türkmənistan əhalisinin DNA (Y) göstəriciləri ilə də müqayisə etmək lazımdır. Türkmənlər arasında aparılan genetik araşdırmaların nəticələri göstərir ki, onlarda C (23.8%) və R1b (36.7%) haploqrupu qismən geniş yayılmışdır. Ümumiyyətlə, bu haploqruplar müxtəlif coğrafiyalarda yaşayan türk mənşəli xalqlar arasında daha çox təsadüf olunur. Lakin, bu türk haploqrupu sayıla bilməz. Ümumiyyətlə, bu cür yanaşmanın özü doğru deyildir. Çünki eyni haploqruplara tamamilə fərqli xalqlar arasında geniş təsadüf olunur.

***

“Pars” bir etnonim kimi, Sasanilər dövründə meydana çıxmışdır. Hələ Əhəmənilər (hətta, ondan əvvəl) və sonra Sasanilər dövründə İranın mərkəzində yerləşən və Mazdayasna təliminin əsas mərkəzlərindən olan (Anahida məbədinin) Parsiana bölgəsinin toponimi (yunanca Persiya) ilə bağlı ortaya çıxmışdır. Bu bölgədə yaşayan müxtəlif mənşəli xalqlar tarixən bölgədə pars (pəhləvicə - parsik) kimi tanınmağa başlamış və bu toponim irandilli hakimiyyətin və onun dilinin aparıcı olmasıyla bağlı olaraq tədricən bölgənin etnoniminə çevrilmişdir. Sonralar bu etnonim ərəb dilində “fars” kimi tələffüz olunmuş (çünki ərəblərdə “p” samiti yoxdur) və müsəlman iranlılar tərəfindən məqbul görülmüşdür.

Təqribən min il əvvəl zərdüştülər Hindistana Pars bölgəsindən deyil, Xorasan ərazisindəki Səncan məntəqəsindən köç etmişlər. Yəni, Sasanilər və sonraki dövrlərdə onların pars adlandırılması mümkün deyildir. Çünki Əhəmənilər və Sasanilər dövründə imperiyanın müxtəlif ərazilərində yaşayan sosial qruplar yerləşdikləri ərazilərin və aid olduqları tayfaların adıyla tanınmışlar (soqd, sak).

“Pars” etnonimi, indiki Fars bölgəsinin toponimi (qədim Parsiana, yunanca Persiya) ilə bağlıdır. Tarixən bu bölgədə yaşayan əhaliyə etnik mənsubiyyətindən asılı olmayaraq “pars və ya parsi” (yəni, parsalı, parsianlı, persiyalı) deyilmişdir. Parsiana bölgəsinin avtoxton əhalisi qeyri-iranlılar olmuşdur. Çünki irandilli xalqların e.ə. I minillikdə bu əraziyə miqrasiya etməsinə qədər qədim mixi yazılarında “Parsua” toponiminə və bu adla tanınan yaşayış məskəninə təsadüf olunur. İrandilli tayfaların bir qismi Parsua ərazisində və ya onun yaxın ərazilərində yerləşmiş, tədricən yerli əhali ilə inteqrasiya olmuş və bir müddətdən sonra avtoxton əhali kimi “pars” adlandırılmışdır. “Pars” toponiminin türk dilində “bəbir, aslan” mənasında işlənən “bars, pars” ismindən törəməsi mümkündür. Həmçinin, türklərin yaşadığı ərazilərdə belə toponimlərə təsadüf olunur: Borçalı (Bars eli), Şirvan (iranlaşmış variant). Bu faktlar, Parsiana bölgəsində yaşayanlar arasında türkdilli xalqların əksəriyyət təşkil etdiyinə və sonradan iran milli kimliyi daxilində assimilyasiya olunduğuna dəlalət edir. Lakin, İran dillərində “aslan, bəbir” üçün “pars” deyil, “şir” ismi mövcuddur. Həmçinin, “pars” sözünün qədim iran dillərində bir məna ifadə etmədiyi də ortadadır.

Şir kultu qədim Şərqdə geniş yayılan hakimiyyət və monarxiya rəmzi idi. Əhəməni monarxiyasının mərkəzi idarəsinin Parsianada yerləşdiyini nəzərə alsaq, bu toponimin təsadüfi yaranmadığını görərik. Digər tərəfdən, Parsiana toponiminin hələ iranlıların həmin ərazilərə köç etməsindən əvvəl mövcud olduğu da (Parsua) tarixi mənbələrlə sabitdir. O zaman, “pars” toponiminin iran mənşəli olmadığını və sonradan iranlılar tərəfindən qəbul olunduğunu, tədricən onların etnoniminə çevrildiyini görürük. Təsadüfi deyildir ki, bu gün və tarixən İran bayrağının üzərində şir təsviri vardır.

“Parsiana” bölgəsindən uzaqda məskunlaşan digər irandilli tayfalar “pars” deyil, öz tayfa və totem adları ilə və ya məşkunlaşdıqları ərazilərin qədim adları ilə tanınmışlar. Onlar uzun müddət

sosial-iqtisadi inteqrasiya şəraitində avtoxton əhali ilə mədəni baxımdan da yaxınlaşmışlar. Pars bölgəsində irandilli tayfaların "Anahida" kultunu mənimsəmələri buna misal ola bilər. Onları birləşdirən ümumi bir mədəniyyətin adı – ari mədəniyyəti, Mazdayasna dini olmuşdur. Bu mədəniyyətin içində yanlız irandillilər deyil, qeyri-iranlılar da yer almışdır. Yəni, məcusiliyi və Mazdayasna təlimini qəbul edən hər bir bölgə xalqı irqindən asılı olmayaraq, ari (iranlı) adlana bilərdi. Bu təlimlərə qarşı çıxanlar (hətta hind-avropa mənşəlilər) ari kimliyindən məhrum olurdu (Bu gün, İranın şiə ideologiyasından istifadə etməsini də buna bənzətmək olar).

Parsların təqribən min əvvəl Türkmənistan ərazisini tərk edərək Hindistana köçmələrini və min il burada yaşamalarını qısa bir tarixi dövr hesab edə bilərik. Bu qısa müddətdə biz böyük dəyişikliklər müşahidə edirik. Lakin, biz bu fərqlərin min il əvvəl də mövcud olduğunu düşünürük. Çünki bu gün olduğu kimi, Sasanilər dövründə də Orta Asiya, Xorasan ərazisi əsasən türklərin yaşadıqları ərazilər olmuşlar. İslamaqədərki dövrlərdə bu ərazilərdə yaşayan türkdilli xalqlar arasında xristianlıq, buddizm, maniheylik ilə yanaşı zərdüştülük dini də yayılmışdır. Parslar Sasanilər dövründə Mərv şəhərində digər din mənsubları ilə birgə yaşayan türkdilli zərdüştülərin varisləridir. Əslində, burada qeyri-adi bir şey yoxdur. Çünki parsların əcdadları Fars bölgəsindən deyil, indiki Türkmənistan ərazində yerləşən Səncan məntəqəsindən Hindistana köç etmiş və yeni yerləşdikləri yeri də Səncan adlandırmışlar. Bunu, yanlız genetik araşdırmalar deyil, həmçinin, tarixi-kultoroloji təhlillər də sübut edir.

## 2. Parsların Hindistana miqrasiyası

Parsların yaşadıqları ilk yaşayış yeri Xorasanda yerləşən Səncan məntəqəsi olmuşdur. İranın Səncan məntəqəsi qədim dövrlərdən başlayaraq müasir dövrə qədər yəhudilərin kompakt şəkildə yaşadığı ərazilərdən biri olmuşdur. Mərv və onun əyalətlərində xristian, buddist, manihey icmaları da olmuşdur.

Parslar, 917-ci ildə Xorasanın Səncan şəhərindən İran körfəzi ilə Div adasına gəlmiş və orada 19 il yaşadıqdan sonra 936-cı ildə Hindistanın Qucarat sahillərində yerləşmişlər (onlar arasında həmçinin Mərv yaxınlığındaki Sari məntəqəsindən olan zərdüştülər də olmuşdur).

Onların öz vətənlərini tərk edərək Hindistana köçməsi barədə tarixi məlumatları əsasən "Qisse-i Səncan" adlı əsərdən əldə edirik. Bu əsər, 1600-cı ildə Qucaratın Navsar şəhərində zərdüştü kahin Bəhman Keyqubad Hamciar Sancana tərəfindən qələmə alınmışdır. Müəllif əsərdə bu hekayəni (qissə) pars kahin (dastur) Huşəng tərəfindən şifahi şəkildə dinlədiyini və dinlədiklərinin çox az qismini yazıya köçürdüyünü qeyd edir [21, 95].

Müəllif əsərdə Sasanilər dövlətinin dağılmasıyla zərdüştü kahin və zərdüştülərin öz inanclarını qorumaq məqsədilə evlərini ailələri ilə birlikdə tərk edərək dağlıq yerlərə (Kuhistan - Xorasanın cənubundaki dağlıq ərazilərə, müasir Sistan və Belucistan əyalətlərinə aid edilir. Lakin, bura bölgədəki bir çox dağlıq əraziləri də aid etmək mümkündür) çəkildiklərini və orada çətin şəraitdə yüz il yaşadıqlarını, sonra təhlükəsizlik məqsədilə Hormuzd şəhərinə (Qədim Hormuz şəhəri İranın cənubunda yerləşən Hormozgan əyalətinin Minab şəhərinə yaxın yerdə yerləşirdi. O, müasir Bəndər-Abbas şəhərindən və limanından 50 km aralıdadır) köçərək orada çətin şəraitdə on beş il qaldıqlarını və nəhayət, qarşıdakı çətinlikləri nəzərə alaraq, ölkəni tərk etmək və inancı qorumaq üçün, Hindistana hicrət etmək qərarına gəldiklərini qeyd edir. Sonra o yazır ki, onlar öz qadın və uşaqları ilə gəmiyə oturub Hindistana tərəf yollandılar və Div (Diu) adasının sahillərinə çıxdılar. Onlar bu adada 19 il yaşadıqdan sonra kahin münəccimin məsləhəti ilə ağır gəmi səyahətinə çıxdılar və nəticədə dəniz tufanından qurtularaq Qucarat ərazisinə gəldilər [21, 96].

Təbii ki, bu tarixi hadisələrin əsrlərlə şifahi ənənələrdə davam etməsi və uzun bir müddətdən sonra yazıya köçürülməsi ərəfəsində qeyri-ixtiyari bir çox təhriflərə yol verilmiş və nəticədə parslar arasında geniş yayılan bir rəvayət (qissə) şəklinə düşmüşdür. Lakin, bu qissədə konkret məlumatlar da vardır. Parsların ilk öncə Səncan ərazisində yaşamaları və Sasanilərin süqutundan sonrakı dövrlərdə ucqar dağ kəndlərinə (Kuhistan) çəkilərək orada uzun bir müddət öz dinlərini qorumaları (100 il), sonra Hormuzd şəhərinə köçərək orada bir müddət (15 il)

qalmaları və nəhayət, oranı da tərk edərək dəniz yoluyla Div (Diu) adasında yerləşmələri və burada bir müddət (19 il) qaldıqdan sonra Qucarat ərazisində məskunlaşmaları söylənilən rəqəmləri çıxmaq şərti ilə konkret məlumatlardır.

Həmçinin, yerli hakimlərin (raca) onların yerli dildə danışmaları və yerli geyimləri qəbul etmələri ilə bağlı ortaya qoyduğu şərtlər də özünü doğruldur. Çünki bu gün parslar hind ləhcələrindən olan qucarat ləhcəsində danışır və öz ilkin danışdıqları dili tamamilə unutmuşlar. Bu gün, onların kişi və qadınlarının geyimlərinin hindlilərin milli geyimlərindən seçilməməsi (xüsusilə, qadınların sari geyimləri), parsların yerli mədəniyyət daxilində güclü assimlyasiyaya məruz qaldığını göstərir.

Parsların Səncanı tərk edib Hindistanın Qucarat ərazisinə yerləşmələri təqribən 135 illik bir müddəti (100+15+19) əhatə edir (bunu azaltmaq və artırmaq da mümkündür).

İlk növbədə Səncan yaşayış məntəqəsinin harada yerləşdiyini dəqiqləşdirmək lazımdır. Orta əsrlərdə Səncan adlı yaşayış məntəqəsinin Mərv şəhəri ətrafında yerləşdiyi bildirilir. Mərv şəhəri (Türkmənistanın Marı şəhəri) və onun daxil olduğu Xorasan, Mavəraünnəhir bölgəsi bu gün olduğu kimi, orta əsrlərdə və qədim dövrlərdə də əsasən türkdilli və qismən irandilli xalqların birgə yaşadıqları ərazilər olmuşdur. Mahmud Kaşqarinin "Divanü Lugat-it-Türk" əsərində mifik türk qəhrəmanı Tonga Alp Ər (Əfrasiyab) tərəfindən Mərv şəhərinin inşa edildiyi və bütün Mavəraünnəhirin (Çay-ardı) qədim dövrlərdən Türk ölkəsi hesab olunması barədə məlumat verir [13, 149]. Bu barədə Firdovsinin "Şahnamə" əsərində, həmçinin bir çox Sasani mənbələrində kifayət qədər məlumatlar vardır. Sasanilər dövründə bu imperiyanın üç böyük atəş məbədindən biri Mərv şəhərində yerləşirdi.

Narşahi yazır: "Səncan - Mərv şəhərinin Dar-i Sənqan adlı qapısının yaxınlığındaki yaşayış məntəqəsidir. İslam ordusu ilk dəfə Mərv şəhərinə yaxınlaşanda burada dayanmışdır." Narşahi yazır: "Mərvə aiddir: Xərək, Hurmuzfərra, Başan, Səncan, Sausakan, Sahaba, Girəng. Sinq-Abbadi, Dandankan. Ondan asılı bölgələr: Mərvrud, Ahnaf və Talkan şəhər qalaları, Serahs şəhəri." [1, 123].

Həmçinin, Səncabəst (yaxud Sənqbast) adlı digər bir yaşayış məntəqəsinin Nişapur və Serahs arasında olduğu yazılır. Narşahi yazır: "Səncabəst (onu Sənqbast adlandırırlar) - Nişapur və Serahs arasında məşhur yaşayış məntəqəsidir." [1, 124]. Yaqut Həməvi Nişapur yaxınlaşanda Səncan adlı yaşayış məntəqəsinin olduğunu bildiir [1, 160]. İbn Xordadbeh Nişapurdan 10 fərsəng aralıda yerləşən Sanqgərdək adlı dağ kəndindən bəhs edir [1, 124].

Hər iki məntəqə tarixi Xorasan ərazində yerləşmişdir. Lakin, Səncan yaşayış məntəqəsinin Mərv ətrafında olması barədə olan məlumatlar daha dəqiq xarakter daşıyır. Çünki digər oxşar yer adlarından (Sanqgərdək) fərqli olaraq, Mərv ətrafındaki Səncan yaşayış məntəqəsi araşdırılan məntəqənin adını tam şəkildə əks etdirir. Deməli, parslar Hindistana təqribən 1000 il əvvəl Türkmənistanda yerləşən Səncan ərazisindən köçmüşlər.

Pars kahinləri parsların Hindistana gəldiyi ilk tarixin 716, 765 və ya 936-cı illərində olması barədə fərqli fikirlər söyləyirlər [20, 34]. Əslində, bunu təsdiq edən konkret tarixi bir sənəd ortada olmadığı üçün, bu barədə konkret rəqəm göstərmək qəribə görünür. Hətta, bu rəqəmlər göstərilmiş olsaydı belə, onları mənbənin uzun müddət şifahi ənənələrdə ötürüldüyünü nəzərə alaraq birmənalı şəkildə qəbul etmək doğru olmazdı. Bu baxımdan, pars kahinlərinin və onlara istinad edən bəzi tədqiqatçıların təqdim etdikləri rəqəmlər çox şübhəlidir.

Bu rəqəmlərə diqqət yetirək:

**A) 716-cı ildə** parsların Hindistana gəlməsi tarixini qəbul etsək, o zaman onların Səncanı təqribən 135 il əvvəl tərk etməsi lazım idi. Halbuki, 581-ci ildə (716-135=581) Mazdayasna təlimini dövlət dini elan edən Sasanilər dövləti mövcud idi və hələ İslam dini ortaya belə çıxmamışdı. Ancaq, qissədə Sasanilərin süqutu və İslam dininin keçmiş imperiya ərazisində yayılması səbəbindən parsların Səncanı tərk etmələri bildirilir. Göründüyü kimi, burada ziddiyyət vardır.

Yox, əgər burada parsların ümumiyyətlə, İran ərazisini tərk edərək Qucarat ərazisinə yerləşmələri tarixi nəzərdə tuturlarsa (716-19=697), o zaman 697-ci ildə parsların artıq Hormuzd ərazisində məskunlaşmaları gərəkirdi.

Burada, yenə təqribən 581-ci ildə parsların nəyə görə öz doğma yurdları Səncanı tərk etmələri sualı cavabsız qalır. Təbii ki, bunu Sasani şahı Ormuzd IV hakimiyyəti dövrü (579-590) ilə bağlamaq doğru olmazdı. Çünki bu ilk növbədə qissənin məzmunu ilə ziddiyyət təşkil edir. Bu baxımdan, göstərilən tarix reallığı əks etdirmir və çox güman ki, o, təhrif olunmuş rəqəmdir.

716-cı il əslində, Vikram hind erasında 772-ci ilin qriqoryan təqviminə çevrilməsi nəticəsində ortaya çıxmışdır. Lakin, bəzi tədqiqatçılar hesab edirlər ki, 772-ci il rəqəmləri 992 rəqəmlərinin təhrif olunması nəticəsində meydana çıxmışdır. Yəni, pars kahinləri əlyazmaları oxuyarkən bir-birinə bənzəyən 7 və 9 rəqəmlərinin yerini səhv salmış və nəticədə 922-ci il 722-ci il kimi oxunmuşdur.

**B) 765-ci ildə** parsların Hindistana gəlməsi tarixini qəbul etsək, o zaman onların Səncanı təqribən 630-cu ildə (765-135=630) tərk etməsi lazım idi. Bu tarix də mümkün deyildir. Çünki bu dövrdə Sasanilər dövləti süquta uğramamışdır. Hətta, bu tarixi bir neçə il (15-20) irəliyə çəksək də, durum dəyişmir. Çünki İslam dininin Orta Asiya ərazilərinə yayılması tarixi sonrakı dövrlərə aiddir. Həmçinin, Əməvilərin hakimiyyətə gəlməsinə qədər (661-750) müsəlman aləmində İslam ədalətinə riayət olunmuşdur. Zərdüştülər də xristian və yəhudilərlə birgə "Əhli-Kitab" statusu altında cizyə vergisi ödəmək şərtilə öz dini əqidələrini sərbəst yaşamaq hüququna malik idilər. Belə bir durumda parsların Səncanı tərk etmələri üçün, heç bir əsas yox idi. Bu rəqəm də, tarixi gerçəklərlə uzlaşmadığı üçün, təhrif edilmiş və ya uydurulmuş bir rəqəm ola bilərdi.

**C) 936-cı il** əslində Vikram hind erasında 992-ci ilin qriqoryan təqviminə çevrilməsi nəticəsində ortaya çıxmışdır. Bu ildə parsların Hindistana gəlməsi tarixini qəbul etsək, o zaman onların Səncanı təqribən 801-ci ildə (936-135=801) tərk etməsi lazım idi. Bu dövrdə xilafətə Abbasilər sülaləsi rəhbərlik edirdi. Onlar, Əməvilərdən fərqli olaraq qeyri-ərəblərə, qeyri-müsəlmanlara daha çox tolerant münasibət ortaya qoymuş və idarəetmədə iran, türk mənşəli müsəlmanlara (məvali) daha çox arxalanmışlar. Çünki Əməvilərin ortadan qaldırılmasında və Abbasilərin iqtidara gəlməsində onların rolu böyük olmuşdur. Üstəlik, bu dövrlərdə Abbasilər tədricən öz gücünü itirir və bölgələrdə yerli hakimiyyət orqanları güclənirdi. Türkmənistan ərazisi də daxil olmaqla bütün Xorasan və əksər Orta Asiya əraziləri tədricən Samanilər sülaləsinin hakimiyyəti altına keçirdi. Samanilər yerli mədəniyyətlərin islam dini ilə inteqrasiyanı təmin edən sosial-mədəni siyasət yürüdürdülər. Yəni, bu dövrdə də zərdüştülərin Səncanı tərk edərək dağlara sığınmaları üçün əsaslı səbəb olmamışdır.

Əslində, parsları, Səncanı tərk etməyə vadar edən sosial-siyasi şərait Əməvi hökmdarlarının hakimiyyəti dövründə (661-750) yaranmışdır. Çünki bu dövrdə Orta Asiya ərazilərində döyüşlərin aparılması, müsəlman və qeyri-müsəlman əhalidən ağır vergilərin tutulması, qeyri-ərəb müsəlmanlardan cizyə vergisinin alınması, qeyri-ərəblərə qarşı ayrıseçkilik siyasətinin həyata keçirilməsi, ərəb qəbilələri arasında torpaq və vəzifə uğrunda döyüşlərin baş verməsi, bölgədə ağır sosial-iqtisadi durumun ortaya çıxması, İran, İraq və Orta Asiya ərazilərində geniş xalq üsyanlarının (məvali hərəkatının) baş qaldırmasına, üsyançıların təqib olunaraq dağlara sığınmasına və bölgədə xaos durumunun yaranmasına şərait yaradırdı. Bu baxımdan, bu dövrdə əksər müsəlmanlar kimi zərdüştülərin də öz dinlərini və təhlükəsizliklərini təmin etmək üçün dağlara çəkilmələri ehtimalı yüksək olmuşdur.

Lakin, bir şeyi də nəzərə almaq lazımdır ki, zərdüştülər o dövrdə yanlız Səncan ərazisində deyil, müxtəlif ərazilərdə mövcud idilər. Əgər məhz zərdüştülərə qarşı belə bir ayrıseçkilik münasibəti olsaydı, o zaman digər ərazilərdə yaşayan zərdüştülər də öz yerlərini tərk edərək başqa yerlərə köçərdilər. Tədqiqatlar göstərir ki, İranın pars bölgəsində yaşayan zərdüştülər həmin dövrdə daha çox olmuş və öz dinlərini islam mədəniyyəti çərçivəsində inkişaf etdirərək bu günədək qoruyub saxlamışlar. Hətta, orta əsr zərdüştçülük mənbələrinin əksəriyyəti İranda IX-X əsrlərdə yazılmışdır. Deməli, məsələyə başqa aspektdən yanaşmaq lazımdır. Yəni, Səncan zərdüştülərinin öz vətənlərini tərk etmələrinin səbəbini birbaşa onların özlərində axtarmaq doğru olardı.

Əgər biz ilk səfərin **917**-ci ildə baş tutduğunu qəbul etsək, həmin illərdə Mərv və onun ətrafında baş verən sosial-siyasi və iqtisadi duruma nəzər yetirməliyik.

Mahmud Kaşqari Mərv şəhərinin ilk iç qalasının əfsanəvi Təhmurəs tərəfindən tikildiyini, ondan 300 il sonra türk hökmdarı Tonga Alp Ər (Əfrasiyab) tərəfindən şəhərin salındığını, buranın türk sərhədlərinin başlanğıcı olduğunu və insanların bütün Mavəraünnəhiri (Çay-ardı) Türk ölkəsi saydıqlarını bildirir [13, 149].

Mərv, Səncan əraziləri əvvəllər yaşayış üçün əlverişli olmuşdur. Mərv şəhərinin adına Avesta, Əhəməni, Roma (Margiana), Parfiya, Sasani və Ərəb mənbələrində geniş təsadüf olunması, onun qədim tarixə və mədəni əhəmiyyətə malik olduğunu göstərir. Çünki o, ipək yolunun üzərində əsas ticarət məntəqələrindən və məcusiliyin əsas mərkəzlərindən biri idi. İstəxri yazır ki, məcusilər (zərdüştülər) ilboyu Zərafşan çayının sahilindəki məhsulları mühafizə etdikləri üçün, Samani hökmdarları tərəfindən cizyə vergisindən azad edilmişdilər [4, 317].

X əsrin ilk rübündə İslam dininə etiqad edən Samanilər sülaləsi Xorasan və Mavəraünnəhir bölgəsinə hökm edirdilər. Artıq bu dövrdə Mərv şəhəri Samanilərin paytaxtı deyildi. Paytaxt Mərvdən Buxaraya köçürülmüşdür. Bu baxımdan, Buxara şəhəri İslam mədəniyyətinin əsas mərkəzlərindən birinə çevrilir və Mərv şəhəri tədricən öz əvvəlki şöhrətini itirirdi. 916-cı ildə səltənətə kiçik yaşlı Samani əmiri Səid Əbül-Həsən Nəsr başçılıq edirdi. Onun 31 illik hakimiyyəti dönəmi ədalət, əmin-amanlıq ilə müşayiət olunmuşdur.

Samanilər sülaləsi dövründə (819-999) İpək Yolunun fəallaşması bölgədə sosial-iqtisadi durumun yüksəlməsinə, ticarətin inkişafına şərait yaradırdı. X əsrdə xilafət ərazisində yaranan müstəqil dövlətlərdə ənənəvi inanc və mədəniyyətlərin fəallaşmasına şərait yarandı. Məsələn, Xəzər dənizinin cənubunda qurulan az ömürlü Ziyarilər dövlətinin varisi kimi ortaya çıxan Buidilər dövləti (İraq və İranın qərb əraziləri) Pars bölgəsində yerləşən Şiraz şəhərini paytaxt elan etmiş və şiəlik məzhəbini dövlət səviyyəsində tətbiq etməyə başlamışdılar. Bu sünnilərin onlara qarşı qalxmasına səbəb olmuşdur. Buid hökmdarı Azud əd-Dövlə iran milli şüurunu oyatmağa çalışmış, şahənşah rütbəsini bərpa etmiş və özünü Sasani V Bəhramın nəslindən olduğunu bildirmiş, zərdüştülərə qədim əcdadları kimi xüsusi hörmət aşılanmış və onlar dövlət işlərinə cəlb olunmuş, ölkədə sosial-iqtisadi vəziyyəti yaxşılaşdırmış, elmə, mədəniyyətə dəstək olmuşdur. Zərdüştülər bu münasibətdən həvəsə gələrək yerli əhali arasında zərdüştçülüyü təbliğ etməyə başlamışlar. Lakin, bu Şirazda müsəlmanlarla zərdüştülər arasında 979-cu ildə vətəndaş qarşıdurmasına səbəb olmuşdur.

Bu dövrdə zərdüştülərin müsəlman hökmdarlar tərəfindən təqib olunmalarını söyləmək doğru olmazdı. Çünki bu dövrdə azad fikirlilik mövcud olmuşdur. X-XI əsrlərdə Sasanilərin, zərdüştçülüyün möhtəşəmliyindən bəhs edən Dəqiqi və Firdovsi kimi şairlər əsərlərində (Şahnamə) müsəlmanları, türkləri aşağılamaqdan çəkinmir və hətta, yazdıqları əsərlərə görə müsəlman hökmdarlardan (Mahmud Qəznəvi 998-1030) hədiyyə və mükafatlar gözləyirdilər.

IX-X əsrlərdə baş verən sosial-siyasi və sosial-mədəni hadisələr müsəlman-iran-türk mədəniyyətinin inteqrasiyasını təmin etdi və nəticədə Orta Asiyada soqd dilini əvəz edən tacik dili, Pars bölgəsində orta fars dilini əvəz edən müasir fars dili, müsəlman türk ədəbiyyat nümunələri, həmçinin dünya elminə böyük töhvələr verən alimlər (İbn Sina, Biruni, Rudəki, Fərabi və s) meydana çıxdılar.

Samanilər dövründə iran mədəniyyəti yeni islam mədəniyyəti kontekstində inkişaf etməyə başladı. Bu mərhələdə vahid islam mədəniyyəti kontekstində müxtəlif xalqların tarixi mədəniyyətləri öz yerini tapdı və onlar arasında güclü inteqrasiya prosesində yeni müsəlman xalqı və vahid müsəlman mədəniyyəti identikliyi formalaşdı. Lakin, bu kimliyin tərkibində əvvəlki kimliklərin xüsusiyyətləri də yer aldı. Samanilərin uzunmüddətli sülh şəraitində davam edən hakimiyyəti dövründə əvvəlki iran mədəniyyəti (soqd dili, orta fars dili, zərdüştçülük, maniheylik, buddizm, mazdayasna təlimi) IX-X əsrlərdə formalaşan tacik farsi-dari ədəbiyyatında (Rudəki, Firdovsi) əriməyə başladı.

Zərdüştülərin Səncanı tərk etməsinin səbəblərinin müsəlmanların olması və ya bir çox şərqşünasların dediyi kimi, cizyə vergisinin olması özünü doğrultmur. Əksinə, zərdüştülər müsəlmanların hakimiyyəti dövründə, əvvəlki Sasanilər dövründən daha əlverişli sosial-iqtisadi mühitdə yaşamışlar. Yuxarıda gətirdiyimiz dəlillər də bunu təsdiq edir.

Bəs, o zaman, parsların Səncanı tərk etmələrinin səbəbi nə ola bilərdi?

X əsrdə Mərv şəhərinin su kanallarının bir qismi xarab olduğu üçün, şəhərdə su çatışmazlığı yaşanırdı və bunun üçün də şəhər əhalisinin üçdə biri şəhərin qərb girişlərinə (rabaz) sığınmışdılar. Şəhərdə və onun ətrafında su problemlərinin yaşanması şəhəri gözdən salırdı. Buna görə də, Samanilər ölkənin paytaxtını Mərvdən Buharaya köçürdülər. Bu isə, Mərv şəhərinin əhəmiyyətinin azalmasına səbəb olurdu. Susuzluq problemi bu şəhərdə sonralar elə dərinləşdi ki, artıq bir neçə on ildən sonra şəhər tamamilə əhali tərəfindən tərk edildi [12, c 29, s. 222].

Mərv yaxınlığında (Qaraqum səhrasının cənubunda) yerləşən Səncan məntəqəsinin sakinləri, həmçinin, orada yaşayan zərdüştülər **quraqlıq** səbəbindən şəhəri tərk etmişlər. Çünki onların Mərvi tərk etmələrinin başqa bir səbəbi görünmür.

### 3. Parsların tarixi birlik rəmzi: Atəşi-Bəhram

Pars kahinləri və böyükləri yaratdıqları vəqflər (əncuman) vasitəsilə zərdüştüləri bir araya gətirir və onların sosial-iqtisadi problemləri ilə məşğul olmağa çalışırlar. Bombeydə parsların baş təşkilatı beş ildə bir dəfə parsların beynəlxalq qurultayını təşkil edir və problemlərinin həllinə çalışır. Parsların Bombeydə bir çox məktəbləri, xəstəxanaları və məbədləri vardır. 1742-ci ildə tikilən Udvad şəhərindəki (Qucarat) İranşo atəşgahı (Atəş Bəhram) zərdüştülərin Məkkəsi hesab olunur. Onlar buradakı atəşin bir zaman İrandan gətirildiyinə və indiyədək qorunduğu rəvayətinə inanırlar.

Hər bir parsın evində ailənin müqəddəs bildiyi və ona etiqad etdiyi müqəddəs atəş vardır. Lakin, məbədlərdə yanan atəş daha müqəddəsdir. Çünki onların tarixi daha qədimdir və onlar əcdadlarla yeni nəsilləri bir araya gətirir. Bu atəşgahlar arasında daha qədim və mifoloji başlanğıca malik odlar da vardır ki, onlar baş məbəddə qorunub saxlanılır. Bu məbədlərdə yanan atəş haqqında elə miflər yaradılmışdır ki, sanki onlar ilk əcdadların vaxtından bu günə qədər saxlanılmışdır. Belə atəşlərdən biri də Mərv atəşgahı idi.

İranda üç əfsanəvi atəş məbədi əsas ziyarət mərkəzləri olmuşdur. Hətta, bu məbədlərin atəşinin tarixinin bəşəriyyətin ilk yarandığı günlərə qədər uzadılması barədə miflərin yaradılması [22, 18. 8, 10], bir daha onların strateji əhəmiyyətini göstərir. Sasanilər dövründə müxtəlif dövlət orqanlarını təmsil edən atəşgahlar vardır. Məhkəmələri dadgah, hərbini Varahran kimi atəşgahlar təmsil etmişdir. Bahram atəşgahı Sasanilər dövründə Varahran (Veretraqna – veretra "qələbə" kökündəndir) adlanırdı. İranın mərkəzində Pars bölgəsində yerləşən Adur Fərnbaq məbədi, İranın şimal-qərbindəki Adur Quşnasp məbədi, İranın şimal-şərqindəki Adur Burzen-Mihr məbədi olmuşdur. Parslar Adur Burzen-Mihr məbədinin ziyarətçiləridir. Bu məbəd indi öz tarixi məkanında mövcud olmasa da, onun əfsanəvi atəşinin pars kahinləri tərəfindən Hindistana götürüldüyü iddia olunur.

E.ə. V-IV əsrlərdə Parfiya ərazisində yaradıldığı iddia olunan Atəşi-Bəhram məbədi həm də Burzen-Mihr adlı naməlum tarixi şəxsiyyətin adıyla bağlı olduğu iddia olunan Adur Burzen-Mihr kimi tanınır. Bu məbədin Revand (Avesta: Raevant) adlı bir məskəndə (man) yerləşməsi barədə məlumatlar vardır [22, 9.21, 37; 18.14]. Həmçinin, Şahnamə əsərində "indi uca Barzin atəşinin alovlandığı Revand (Navand) adlanan yerdə" unudulmuş Parfiya qəhrəmanı Rüstəmdən bəhs edir [18]. Ataş Niayeş əsərində Xorasanda Nişapur dağları ərazisində yerləşən Revand bölgəsində Borzinan kəndindən bəhs olunur [9, 4/5].

Denkart əsərində Vistaspanın *Ahura Mazda atəşi ilə bağlılığı barədə (ātaxš ī Ohrmazd ī abzōnīg) məlumat verilir [5,* 7.4., 75-78]. *Böyük Bundahişn əsərində isə, həmin atəşin A*dur Burzen-Mihr adlandırıldığı və onun *Viştaspa tərəfindən Revand dağında yerləşdirildiyi, həmçinin buradan zərdüştülüyün hər tərəfə yayıldığı bildirilir* [23, 18.14]. Atəş-Niayeş mətnlərində isə, Viştaspaya və məbədə işarə edilməsə də, Raevant dağı ilə bağlı atəşdən bəhs edilir [9, 18.13]. Mənbələrdə Xorasanda Rivand atəşgahı haqqında məlumatlar vardır.

*A*dur Burzen-Mihr məbədinin Parfiya şahlığının əsas dini məbədi olması və onun bu şahlıq ərazisində (orta əsr Xorasan ərazisi) böyük nüfuza sahib olması ehtimalı böyükdür. "Rəvayət-i Pars" əsərində bildirilir ki, "Zərdüşt

Asfantaman Hörmüzdün hüzurundan gətirdiyi atəş ***A***dur Burzen-Mihr adlanır. Ərcasp Lohraspı öldürdükdən sonra ***A***dur Burzen-Mihr atəşi gözlənilmədən öz-özünə söndü və Dašt-e Veštaspan adlı yerdə peyda oldu." [6, 72].

Bundahişndə isə, bu yer Revand dağı kimi səciyyələndirilir [23, 9.37]. Dəqiqi belə bir məlumat çatdırır ki, ***A***dur Burzen-Mihr atəşinin məbədi Goştasp tərəfindən tikilmiş və Zərdüşt peyğəmbər onun qarşısında çinar ağacı (keşmar) əkmişdir. Bu atəş məbədi Sasanilər dövründə üç böyük atəş məbədindən biri hesab olunmuşdur. Sasanilər cəmiyyətində sosial təbəqələşmə modelində yer alan kahinlər, döyüşçülər və əkinçi-maldarlar təbəqəsinin hər biri bu üç böyük məbəd ətrafında sistemləşmişdir [17, 293-294].

Sasanilər cəmiyyətində ***A***dur Burzen-Mihr məbədi adətən əkinçi-maldarlar təbəqəsinin, parfiyalıların məbədi olmuşdur (digər iki məbəd kahinlər təbəqəsini təmsil edən pars Fərnbaq və döyüşçüləri təmsil edən midiyalıların Guşnasp məbədi olmuşdur). Hər üç məbəd Sasan sülaləsinin və Sasanilər dövlətinin ərazisinə aid olan strateji məbədlər kimi qiymətləndirilmişdir [8, 1.11].

Atəşi-Bəhram (Adur Varahram - "Zəfər Atəşi") adlanan bu atəşgahın imperiya üçün böyük geostrateji, hərbi və iqtisadi əhəmiyyəti var idi. Bu atəşgah orta əsrlərdəki Xorasan və Orta Asiya (Türküstan) zərdüştülərinin və Sasanilərin şərq bölgələrindəki digər atəşgahların mərkəzi hesab olunurdu. Çünki bura bölgənin daha yüksək rütbəli kahinlərinin və bölgənin vergilərindən əldə olunan sərvətlərin toplandığı mərkəz idi. Həmçinin, böyük İpək Yolunun üzərində yerləşən məbədin Çin, Hindistan və digər ölkələrarası iqtisadi-ticari əlaqələrin tənzimlənməsində rolu böyük idi. Bu məbəd Sasanilərinin şərq, şimal-şərq sərhədlərinin qorunmasında mühüm əhəmiyyət daşıyan hərbi mərkəz funksiyası da daşıyırdı. Orta Asiyanın şimalından cənuba miqrasiya edən türk tayfaları imperiya üçün böyük təhlükə təşkil edirdi. Sasanilər bu məbədin vasitəsilə bölgədə zərdüştülərin sayını artırmaq və bununla da öz sosial-siyasi nüfuzunu genişləndirmək məqsədini daşıyırdı. Bu təlimin və siyasi ideologiyanın mərkəzi pars bölgəsində yerləşən Atəş-i Bəhmən məbədi idi. Bu məbədin atəşinin külünün və nirəngin, mərasim alətlərinin sonradan Səncana qayıdan kahinlər tərəfindən gətirildiyi bildirilir [11, 106**]**.

Zərdüştülər üçün ev atəşi ailə birliyini təmin edirsə, məbəd atəşi ictimai birliyi, böyük məbədlərin atəşi isə, dini birliyi təmin edirdi. Bu inanc, iran milli şüurunun formalaşmasında mühüm rol oynamışdır. Məsələn, parslar min ilə yaxın bir müddətdə İran mədəniyyətindən ayrı düşərək hind mədəniyyətinə inteqrasiya olunsalar da (geyim, mətbəx, dil baxımından), onların pars kimliyi məhz bu atəşgahların hesabına qorunub saxlanmışdır. Bu məbədlər parsların müasir dövrdə Hindistanda və digər yerlərdə bir diaspora şəklində təşkilatlanmasına şərait yaratmışdır.

Parslar Hindistanın müxtəlif yerlərinə yayılsalar da (Vankaver, Broaç, Anklesar, Navsari, Kambey, Variav, Bomvey və s), məhz bu inanc əsasında həm yerləşdikləri yerlərdə təşkilatlana bilir, həm Hindistandakı mərkəzi Səncan Atəş-i Bəhram məbədləriylə əlaqələrini qurur (bütün atəşgahların külü buradan aparılır və bu atəşgah onların həcc ziyarəti kimi əsas mərkəzinə çevrilir), həm də İran və Avropa zərdüştüləri ilə əlaqələri itirmirlər. Burada zərdüştü kahinlər diasporalar daxilində (bir qrup zərdüştü ailəsinin mənəvi məsələləriylə məşğul olan kahinlər arasında ənənəvi münasibətlər qurulmuşdur) və diasporalararası əlaqələrin möhkəmlənməsinə və onlarda zərdüştçü ənənələrin qorunub saxlanmasına xidmət göstərirlər. Bu baxımdan, zərdüştü kahinlərini, əsrlərlə dünyanın müxtəlif yerlərinə yayılan yəhudiləri bir icma və diasporalarda toplayan və onlara yəhudiliyi yaşadan ravvinlərə bənzətmək olar. Buna görə, Hindistana gələn portuqallar parsları yəhudilərə bənzətmişlər.

## 3. Parsların demoqrafiyası

Hindistanda yaşayan parslar say baxımından Hindistan əhalisinin çox cüzi bir hissəsini təşkil edirlər (0,01%). Parsların demoqrafik inkişafının statistik göstəricilərinin dinamikası göstərir ki, onların demoqrafiyası 1881-ci ildən (85,078 nəfər) 1941-ci ilə qədər (114.890 nəfər) artan xətt üzrə inkişaf etmiş və 1941-ci ildən başlayaraq sürətlə aşağı enmişdir. Yəni, 1951-ci ildə 111.791 nəfər 1961-ci ildə 100.772 nəfər, 1971-ci ildə 91.266 nəfər, 1981-ci ildə 71.630 nəfər, 1991-ci ildə 76.382 nəfər, 2001-ci ildə 69.601 nəfər olmuşdur (Diaqram 1) [7].

**Diaqram 1.**

**Parsların təbii artımı [7].**




Parsların 1881-ci ildən (85.078 nəfər) 1941-ci ilə qədər (114.890 nəfər) demoqrafiq artımı 60 il ərzində cəmi 29.812 nəfər (60 il üçün bu artım 28%) təşkil etmişdir. Lakin, 1941-ci ildən başlayaraq zərdüştülərin sayı sürətlə aşağı enmişdir. Bunun müxtəlif səbəbləri vardır:

*3.1. Hindistanın bölünməsi*

1947-ci ildə Britaniya Hindistanının Hindistan və Pakistan dövlətlərinə bölünməsi nəticəsində ortaya çıxan münaqişələrdə bir milyon insan ölmüş və 18 milyon insan dini kimliyini qorumaq üçün öz yerindən həmdinlərinin yanına köçmək məcburiyyətində qalmışdılar (onlardan dörd milyon insan sonrakı siyahıya alınmada qeydə alınmamışdılar). 1941 və 1951-ci il demoqrafik göstəricilərinə görə, zərdüştilərin sayı bu tarixi proseslərlə bağlı birdən 3.100 nəfər azalmışdır [3]. Bunun əsas səbəblərindən biri zərdüştilərin bir qisminin Pakistan ərazisində qalması, digəri isə onların bir qisminin iqtisadi durumla bağlı olaraq Bombey kimi şəhər mərkəzlərinə sığınmaları olmuşdur.

3.2. *Bombey mühacirəti*

İlk öncə Qucarat vilayətinin Sancan ərazisində ənənəvi əkinçilik, bağçılıq və parçaçılıq işi ilə məşğul olan parsların bir qismi sonralar həmin vilayətin müxtəlif yerlərinə (**Vankaner, Broaç, Anklesar, Variav, Kambey, Navsari**) köçmüş və oradan da tədricən qonşu Maharaştra ərazilərinə və Bombeyə yerləşmişlər. Lakin, böyük şəhərlərdə sənayeləşmənin artması ilə əlaqədar olaraq onların böyük bir qismi böyük şəhərlərə, xüsusilə Hindistanın sosial-iqtisadi mərkəzi olan Bombey şəhərinə əmək miqrasiyası etmək məcburiyyətində qalmışlar. Bu proses bu günədək davam edir. Xüsusilə, müasir həyat tərzinə, müasir təhsilə, sosial inteqrasiyaya can atan gənc nəsil arasında bu sosial proses daha sürətlə gedir. Məhz, bunun hesabına onların müxtəlif şəhərlərdə diasporalarının sayı və tərkibi artır. Bu, həmçinin, yoxsul əyalətlərdə yaşayan ənənəçi parsların sayının azalmasına və mənəvi varisliyin qırılmasına şərait yaradır. Bu digər tərəfdən, böyük şəhərlərə gələn parsların tədricən yerli diasporaların, zəngin parsların yardımı ilə müasir təhsilə, biznesə, yaşadıqları ölkənin ictimai-siyasi həyatına qatılmasına səbəb olur. Nəticədə, onlar, əyalətlərdə və kiçik şəhərlərdə yaşayan parslardan öz bilik, dünyagörüşü, həyat şəraitinə görə fərqlənirlər. Bu isə, onların inanc və ənənələrə baxışında da fərqli yanaşmaları ortaya qoyur. Təsadüfi deyildir ki, şəhərlərdə yaşayan parslar islahatçılar kimi tanınmışlar. Lakin, Bombeydə məskunlaşan əhalinin siyahıya alınmasında etnokonfesional xüsusiyyətlər əksər hallarda kifayət qədər nəzərə alınmadığı üçün, oradakı parsların sayı qeyri-müəyyən olmuşdur. Buna görə də, parsların bu gün Bombeydə 100.000 nəfər olması ilə bağlı qeyri-rəsmi məlumatlar da vardır.

Parsların birliyini və ənənələrin qorunmasını tarixən təmin edən kahinlər olmuşlar. Kahinlik irsi yolla ötürülmüşdür. Valideynləri kahin olanlar uşaqlıqdan atalarının peşələrini davam etdirirlər. Lakin, sadə parslar müxtəlif peşələri

seçməkdə azaddırlar. Lakin, modernizm prosesləri gəncləri bu ənənələrdən uzaqlaşdırır. Müasir təhsil görən parsların bir qismində bu ənənələr ikrah hissi doğurur. Məsələn, Bombeydə bir neçə ailə khandiyar vardır ki, onlar yas mərasimlərini yerinə yetirir və parsların cəsədlərini daxmalarda qurda-quşa yem edirlər. Buna görə də, parslar onlardan uzaq durur və hətta, mundar olmamaq üçün, onların gözlərinə baxmaqdan ehtiyat edirlər. Onlar, bu insanları özlərindən hesab etmir və onların uşaqları ilə evlənmirlər.

*3.3. Avropa mühacirəti*

XIX əsrin ortalarında parslar ticarətlə bağlı olaraq Hindistandan Şərqi Afrika, Böyük Britaniya, Çin və Sind ərazilərinə getmiş və həmin ərazilərdə məskunlaşaraq ilk zərdüştçü diasporaları qurmuşlar. Onlar, əsasən XX əsrin ortalarından başlayaraq Asiya və Afrikada tədricən müstəmləkələrin süqutu, qloballaşma prosesinin başlanması, sosial-siyasi və iqtisadi böhranların yaşanması Şərqi Afrika, Çin, Hindistan, İran (1979 ildə baş verən İslam inqilabı nəticəsində) və başqa ölkələrdə də yaşayan zərdüştülərin Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və başqa Qərb ölkələrinə getməsinə və burada diasporalarda təşkilatlanmasına səbəb olmuşdur. Köçənlər arasında bir qrup İran zərdüştüləri də olmuşdur. Onların Qərbdə qurduqları diasporalarda zərdüştülərlə yanaşı, bir qrup müsəlman iranlılar da təmsil olunmuşlar. Çünkü iranlıları dini dəyərlərdən başqa birləşdirən milli-etnomədəmi dəyərlər də mövcuddur (ümumi tarix, vətən, dil, musiqi, mətbəx, novruz bayramı və s. adət-ənənələr).

3.4. *Qeyri-zərdüştülərlə nikah problemi*

Parsların bir çox problemləri qatı konservativlikləri, qapalı icmada yaşamaları və icmaya qeyri-parsları yaxın buraxmamaları ilə əlaqədar meydana çıxır. Pars kahinləri, hər bir zərdüştçünü pars saymadıqları kimi, hər bir parsı da zərdüştçü hesab etməzlər. Çünki onlar parsların qeyri-zərdüşt və qeyri-pars ilə evlənməsi nəticəsində dinə bağlılıqlarının zəifləməsindən və dini inanclarını tərk edəcəklərindən ehtiyat edirlər. Pars kahinləri qarışıq nikahlardan olanları pars hesab etmir və onları günahkarlar kimi novzat mərasiminə (dini qəbul etmək) qəbul etmirlər. Parslar arasında zərdüştü mərasimlərinə və qaydalarına riayət etməyənlər isə, zərdüştü hesab edilmirlər. Zərdüştü kahinlər tarixən etno-konfessional kimliklərini qorumaq üçün, dini icma daxilindəki nikahlara üstünlük verirlər. Parsların gec və qohumlarla evlənmək ənənəsi, onların sayının azalmasına və tez qocalmasına təsir edir. Parslar arasında yayılan bu endoqam ailə modeli barədə tarixdə bəzən yanlış fikirlər formalaşmışdır.

## 4. Parslar və ingilislər

Avropa dövlətləri (xüsusilə İngiltərə) XIX əsrdən başlayaraq Asiyadakı monarxiya rejimlərini dağıdaraq, onları müstəmləkəyə çevirmək yolunda ciddi praktiki addımlar atmağa başladılar. Bu sahədə ilk addımlar, kapitalizmin sənaye inqilabını öz milli maraqları çərçivəsində tədricən Asiyaya gətirməkdən ibarət olmuşdur. Çünkü Asiya ucuz işçi qüvvəsi, zəngin təbii ehtiyatlar, yeni istehlakçı və ticarət bazarı demək idi. Lakin, bu praktiki addımlar, uzun müddət aparılan ciddi nəzəri araşdırmaların nəticəsi kimi ortaya çıxmışdır. Çünki regionu hərtərəfli şəkildə öyrənmədən, onu öz təsiri altına almaq mümkün deyildir.

XIX əsrin əvvəllərindən başlayaraq İngiltərə hökuməti Moğol müsəlman hakimiyyətinin razılığı və Ost-Hind kompaniyası vasitəsilə Hindistanın dəniz ticarəti üçün əlverişli olan liman ərazilərində (Surat, Qucarat, Bombey) özünə sığınacaq tapdı. Əhalisi əsasən hindulardan və dini azlıqda olan parslardan ibarət olan bu ərazilər (Surat, Qucarat), müstəmləkəçilərə gələcəkdə bütün Asiya üzərində öz hakimiyyətini qurmaq üçün başlanğıc nöqtəsi oldu. Burada yaşayan əhalidən ucuz işçi qüvvəsi kimi öz məqsədləri istiqamətində istifadə edən ingilislər, müstəmləkəçilik siyasətinə uyğun olaraq hindu çoxluğuna qarşı azlıqda olan parsları (Hindistan əhalisinin 0,01% təşkil edən) özünün əsas sosial bazası kimi qəbul etdi.

Ost-Hind kompaniyasının onları seçməkdə məqsədi nə idi?

İngilislərin parslardan öz sosial-iqtisadi və siyasi məqsədləri istiqamətində istifadə etməsi, onların ənənəvi həyatını büsbütün dəyişdirmişdir. Parslar Bombeydə kapitalizmin inkişafında böyük rol oynamışlar. Onlar ingilislərin himayəsi altında kimya sənayesi, gəmiqayırma, poladəritmə, tekstil sahələrinin

inkişafında, yeni tipli məktəb, hospital və xeyriyyə fondlarının açılmasında, Hindistanın İngiltərə və Çin ilə ticarət əlaqələrində və sələmçilikdə fəal iştirak etmişlər. Onlar iqtisadi maraqlar çərçivəsində dini ənənələrə zidd olaraq, dəniz ticarəti ilə əlaqədar dəniz səyahətinə çıxmış və icmanın yaşadığı ənənəvi yerləri tərk edərək Bombeyə miqrasiya etmişlər.

Cəmiyyətdə yeni kapitalist iqtisadiyyatının yaranması və inkişafı, onun təməlində dayanan müvafiq elm və təhsilin kütləvi şəkildə yayılmasını zəruri edirdi. Çünkü savadsız əhaliyə öz doğma dilində savad vermədən, onların ucuz əməyindən yeni sənayedə yararlanmaq mümkün olmazdı. Buna görə də, Ost-Hind kompaniyası, hindu və parsların məskunlaşdıqları ərazilərdə (Surat, Bombey) yeni tipli məktəblərin açılmasını təmin etmişdir. Bu məktəbdə ingilis və qucarat dilində təhsil alan parslar, tədricən qərb təfəkkürünün təsiri altına düşmüş və cəmiyyətdə yeni subkultur təbəqəni formalaşdırmışlar. Bunun nəticəsində parslar şəhərdə (Bombey) modernləşən islahatçı icma zərdüştülərinə (pançayat) və əyalətlərdə (Qucarat) ənənəvi zərdüştçülüyü davam etdirən ənənəçi zərdüştülərə parçalanmışlar. Onlar arasında qarşıdurma tədricən daha da dərinləşərək, onların baxış və həyat tərzlərini liberal və ya konservativ olaraq bir-birindən fərqləndirmişdir.

Müstəmləkəçilik regiona özü ilə protestantlığın missionerlik fəaliyyətini gətirmişdir. Çünki protestantlıq, qərbin müasir liberal dəyərlərini xristianlıqla əlaqələndirən və ya xristianlığı modernləşdirən bir islahatçı xristian cərəyanı kimi, Asiyada qərbin sosial-mədəni, siyasi-iqtisadi maraqlarını təmin edirdi. Buna görə də, missionerlər Asiya xalqlarının dini əqidələri ilə yaxından tanış olaraq, onları öz məqsədləri istiqamətində təhrif etməyə çalışırdılar. Hindistan əhalisi arasında təbliğat işi aparan missionerlər, parsları da öz tərəflərinə çəkməyə cəhd göstərdilər. Bunun üçün, onlar, avropa dillərinə tərcümə olunan zərdüştçülük mənbələrini öyrənib təhlil etmişdilər. Bir neçə tutarlı fakt ələ keçirən missionerlər qəzet, kitabça və disputlarla zərdüştüləri çoxtanrıçılıqda və dualizmdə, zərdüştçü kahinlərini isə cahillikdə, savadsızlıqda ittiham etmişlər. Çünki onların həmlələri qarşısında aciz qalan kahinlərin bu durumu sübut etmişdir ki, ənənəçi zərdüştü kahinləri mahiyyətinə varmadan müəyyən mərasimləri yerinə yetirməkdən və müəyyən dini mətnləri əzbər söyləməkdən başqa heç nə bilmirdilər. Bu isə, bir çox zərdüştçünün ənənələrə və onları təmsil edən kahinlərə şübhə ilə yanaşmasına, eyni zamanda bir qrup zərdüştçünün xristianlığı qəbul etməsinə səbəb olmuşdur.

Bu gərgin vəziyyətdən çıxış yolu axtaran kahinlər, Avesta mətnlərinin gizli məna daşığını irəli sürməklə, zərdüştülükdə yeni teosofik, okkultik (ilmi xşnum) təriqətlərin ortaya çıxmasına şərait yaratmışlar. Lakin, filoloji araşdırmalar nəticəsində bütün Avestanın deyil, yanlız onun kiçik bir hissəsi olan Qataların Zərdüşt peyğəmbərə aid olduğunu və Qata mətnlərinin monoteist təlim olduğunu sübut edən alman filoloqu Martin Hauq, bu araşdırma ilə bir tərəfdən bundan bixəbər olan ənənəçi kahinlərin nüfuzunu aşağı saldı, həmçinin qərb araşdırma metodlarının nüfuzunu artırdı, digər tərəfdən, onları missionerlərin həmlələrindən xilas etdi. Nəticədə, islahatçı zərdüştülər Avesta mətnlərinin yenidən öyrənilməsi üçün, onların qərb araşdırma metodları əsasında qucarat dilinə tərcümələrini və yeni təfsirlərini ortaya qoydular.

XIX əsrin ortalarında Qərbi Avropada təhsil alan parslar öz inanclarını məşhur T.Hauq, C.Oppert, F.Şpiqel və s. vasitəsilə yeni qərb fəlsəfəsi aspektindən öyrənməyə başladılar. Onlar 1852-ci ildə Bombeyə qayıdanda zərdüştçülüyü öyrənən pars assosasiyası yaratmağa səy göstərdilər. Bu təşkilatın yaradılması məqsədi müasir elmi nailiyyətlərə əsaslanaraq zərdüştçülüyün ilkin variantını üzə çıxarmaq və onu dirçəltmək idi. Onlar arasında ən tanınmış olan pars alim Xurşid Rüstəm Kama idi. Sonralar Hindistan Şərqşünaslıq İnstitutu onun adı ilə adlandırılmışdır.

Martin Hauqun kəşfi, zərdüştçülüyün öyrənilməsində heç kimin ağlına gəlməyən böyük bir inqilabi kəşf oldu. Zərdüştçülük təlimində islahatlara və fərqli baxışlara yol açan bu inqilabi kəşfin bütün zərdüştülər arasında (həmçinin İran ərazisindəki zərdüştülər arasında) yayılması və təbliği əsas məsələyə çevrildi.

Hindistanda parsları özünün yerli sosial-iqtisadi bazası kimi dəstəkləyən və beynəlxalq ticarət əlaqələrində onlardan etibarlı vasitəçilər

kimi yararlanan ingilislər (daha doğrusu, Ost-Hind kompaniyası), yanlız buna görəmi parsları Asiyada gələcək siyasi planlarının tərkib hissəsinə çevirmişdilər? Yoxsa, onlar, həmçinin, parsların Səfəvilər dövləti ərazisindəki zərdüştçü həmdinləri ilə əlaqələrinin genişlənməsində siyasi maraqlar güdürdülər?

Bu fikri istisna etmək olmaz. Çünki sonrakı dövrün tarixi hadisələrinin gedişatı, bu fikri söyləməyə məntiqi əsas verir. Həm də avropalılar parslardan əvvəl, İrandakı zərdüştülər barədə məlumata malik idilər. Hələ intibah dövründən İrana səyahət edən avropa səyyah, alim və diplomatlarının oradakı zərdüştülər barədə verdikləri məlumatlar buna sübutdur. İran və Hindistan zərdüştülərinin bütün tarixi dövrlərdə bir-birlərinə gediş-gəlişi, ingilislərin nəzərindən yayına bilməzdi. Bu baxımdan, parslar ingilislərin Səfəvilər dövləti daxilində casusluq şəbəkəsini yaratmaqda vasitəçi ola bilərdilər.

XIX əsrin ortalarından başlayan və bu gün qloballaşma ilə davam edən bu proseslər elə bir həddə çatmışdır ki, artıq dünyada olan hər bir zərdüştçü diasporu özünəməxsus zərdüştülük təriqəti ortaya qoymuş və hətta, ona yeni bir ad qoymaq barədə müzakirələrə başlamışlar. Bu isə, gənc nəslin tədricən zərdüştçülükdən soyumasına və öz mənəvi ehtiyaclarını başqa istiqamətlərdə, başqa dinlərdə axtarmasına səbəb olur [10, 652].

Mary Boyce, Cohn Hinnels kimi tədqiqatçıların araşdırmaları, zərdüştülərin müasir durumunu öyrənmək baxımından əvəzolunmazdır. İngilis tədqiqatçısı Mary Boyce İran və Hindistanda yaşayan zərdüştçü icmaları arasında bir neçə il tədqiqat işi aparmışdır. Onun tədqiqatları XX əsrin ortalarına qədər olan dövrləri əhatə edir. Lakin, ingilis tədqiqatçısı John Hinnells, Asiya (Hindistan, Hong-Kong, Pakistan), Afrika (Zənzibar, Keniya), Avropa (İngiltərə, Fransa, Almaniya), Amerika (ABŞ, Kanada) və Avstraliyada 11 ölkə və 20 şəhərdə olan müxtəlif zərdüştçü diasporaları arasında XX əsrin 60-cı illərindən sonra 20 il canlı sosioloji tədqiqatlar aparmış və onların müasir tarixi, məişəti, problemləri ilə bağlı əldə etdiyi materialları təhlil edərək 2005-ci ildə "Zərdüştçülük diasporaları" (The zoroastrian diaspora) adlı əsərində nəşr etdirmişdir.

**5. Parslarda diasporçuluq**

XVI əsrdə Hindistana yol açan Ost-Hind şirkətinin portuqal əsilli hərbiçiləri Qucarat ərazisində zərdüştülərlə tanış olarkən, ilk öncə onları yəhudi hesab etmişlər. Onlar arasında ispan yəhudilərindən olan portuqal farmakoloqu Qarsia da Orta bu səhvi düzəldərək yazmışdır: "Orada Koari adlanan tacirlər vardır. Kambaya xanlığında onlar Espars (Pars) adlandırılırlar. Biz, portuqallar, onları yəhudi adlandırırıq. Əslində, onlar yəhudi deyillər. Onlar Persiyadan gələn, öz əlifbası və bir çox qəribə inancları olan bütpərəstlərdir... Onlarda sünnət adəti yoxdur. Donuz əti onlara haram buyurulmamışdır. Onların yəhudi olmamalarını hər şeydə müşahidə edirik." [2].

Buna baxmayaraq, çoxları parsları "Hindistan yəhudiləri" kimi tanıyır. Parslar və yəhudilər arasında bənzərliklər vardır. Bu əlaqələrin tarixi və dini kəsişmə nöqtələri vardır. E.ə. VI əsrdə İran və İraq ərazilərinə sürgün edilən yəhudilər İranda yaşayan zərdüştülərlə sosial-mədəni əlaqələrdə olmuşlar. Hətta, bu əlaqələr nəticəsində "Babil Talmudu" mənbəyinin ortaya çıxması, hər iki dində bəzi oxşar mərasimçilik elementlərinin olması haqqında da fikir söyləyənlər çoxdur.

V. Safran yazır: "Pars və diasporaları arasında bir çox müqayisələr aparmaq mümkündür. Hər iki diasporun nümayəndələri ümumi bir dini əqidədə birləşmiş, ticarət və azad peşələrlə məşğul olmuş, sənaye inqilabının pionerləri olmuş və hakim sinifə müxtəlif səmərəli xidmətlər göstərmişlər. Yəhudilər kimi parslar da hakimiyyətə loyal olmuşlar." [15, 89].

Parslarla yəhudilərin oxşar əlamətlərini aşağıdakı kimi səciyyələndirmək olar:

1. Parslar da öz tarixi kimliklərini qorumaq üçün, dini icma və diaspora hərəkatında mövcud olmuşlar. Onlar qədim dövrlərdən başlayaraq öz torpaqlarını tərk etmiş və miqrasiya halında diaspora şəklində müxtəlif ölkə ərazilərinə yayılmışlar. Onlar, hələ Əhəmənilər dövründən müxtəlif yerlərə (Anadolu) miqrasiya etmişlər. Onların dini kimliyi diaspor hərəkatının təməlində dayanmış və Asiya xalqları arasında assimilyasiya olunmamasına şərait yaratmışdır. Xüsusilə, Hindistanda kasta sistemini nəzərə alsaq, bu kimliyin nə qədər güclü immunitetə malik olduğunu söyləyə bilərik.

2. Onların dini mənsubiyyəti etnik mənsubiyyəti ilə eyniləşmiş və yəhudilərdə olduğu kimi, milli din xarakteri almışdır. Yəhudilər özlərini dini inanclarına görə "Tanrı tərəfindən seçilmiş xalq" kimi tanıdıqları kimi, zərdüştülər də özlərini Ahura Mazdanın seçilmiş dininin (behdin) nümayəndələri hesab edirlər.

3. Onlar Hindistanda və digər yaşadıqları yerlərdə sənaye inqilabının, ticarət əlaqələrinin, bank sisteminin qurulmasında öncül olmuşlar. Hindistanda parslara ölkənin ən müasir və mütərəqqi insanları kimi hörmətlə yanaşılır. Onlar arasında məşhur Tata, Modi kimi biznesmenlər, Homi Bhabha kimi fiziklər vardır. Parslar arasında yoxsul, evsizlər, fahişələr yoxdur. Onlar etnikonfesional azlıq kimi, Hindistanda ingilislərin diqqətini cəlb etmiş və imperiya maraqları istiqamətində istifadə olunmuşlar.

4. Parsları yəhudilərdən fərqləndirən digər bir cəhət də odur ki, yəhudilər XX əsrin ortalarında Fələstində öz dövlətlərini qurmuşlar. Parslar isə, minillərlə mövcud olan İran dövlətini özlərinin tarixi vətəni hesab etmişlər. Lakin, onlar, müsəlman İranı deyil, Əhəməni və Sasani İranı görmək həsrəti ilə yaşamışlar.

5. Onlar, yəhudilər kimi "öz torpaqlarını tərk etmək", "vəd olunmuş torpaqlara dönmək" və messiyanın gəlişi ideyasına qismən malikdirlər. Çünki onların inancına görə, Zərdüşt peyğəmbərin soyundan gələn son peyğəmbər (Saoşyant) şər üzərində qələbə çalacaq və ədaləti bərpa edəcəkdir. Yəni, bu yanaşma, İranda islamın yox edilməsi və zərdüştçülüyün bərpası ideyasına bənzəyir.

**Nəticə**

1. Aparılan tarixi və genetik araşdırmaların nəticəsi göstərir ki, X əsrdə indiki Türkmənistan ərazisindən Hindistana köçən parslar etnik baxımdan İrandakı fars mənşəli zərdüştülərdən fərqlənirlər. Hindistanda onlar, həm dini, həm də etnik azlıq idilər. Buna görə də, onlar etnokonfesional identikliklərini "pars" kimliyi ilə eyniləşdirmişlər.

2. Araşdırmalar göstərir ki, pars etnonim deyil, toponimdir. Sonradan Parsua ərazisinə məskunlaşan ari tayfaları digər avtoxton qeyri-arilərlə birgə həmin ərazidə yaşamış və digərləri kimi, həmin ərazisini adı ilə, yəni pars (parsalı, Parsuada yaşayan) adlandırılmışlar. Parsua toponiminin türk dilində olan "bars" (şir, aslan) ismindən törəməsi mümkündür. Çünki bu əyalətin rəmzi hər zaman və bu gün də şir rəmzi ilə bağlı olmuşdur (İran bayrağında olan şir rəmzi). Lakin, Parsua ərazisində arilərin öz şahlıqlarını qurmaları və bölgə üzərində siyasi-mədəni hegemonluqları nəticəsində pars toponimi aridilli farsların etnoniminə çevrilmişdir.

3. Parsların Hindistana köçünün səbəblərini bir çox tədqiqatçılar cizyə vergisi və müsəlmanların zərdüştüləri təqib etməsi ilə əlaqələndirməyə çalışırlar. Lakin, bizim araşdırmalar göstərdi ki, bunun heç bir elmi əsası yoxdur. Onların Hindistana köçünün əsas səbəbi, yerləşdikləri Mərv ərazisində X əsrdə genişlənmiş quraqlıq hadisəsi olmuşdur. Bu öz təsdiqini tarixi materiallar vasitəsilə tapır.

4. Parsların Hindistanda bir icma kimi formalaşmasında və tarixi birliklərinin təmin edilməsində əsas rolu dini inancları oynamışdır. Xüsusilə, dini rəhbərləri bu sahədə əsas rol oynamışlar. Bu baxımdan, onların yəhudilərlə oxşar sosial-tarixi bənzərlikləri kifayət qədərdir.

5. Parsların Hindistanda modernləşmə prosesində mühüm rolu olmuşdur. Çünki Hindistanı işğal edən ingilislər, oradakı etnokonfesional azlıqlara daha çox üstünlük vermiş və onlardan öz məqsədləri istiqamətində istifadə etmişlər. Bu baxımdan, parslar, Hindistanda modernləşmə sahəsində daha tez inkişaf etmişlər.

6. Parsların demoqrafik strukturu və təbii artım səviyyəsi iflasa uğrayır. Çünki onlar, öz inanclarını qorumaq məqsədilə endoqam evliliklərə üstünlük verir və ekzoqam evliliklərdən çəkinirlər. Digər tərəfdən, kapitalizm münasibətləri onları ənənəvi kollektiv təsərrüfat və birgəyaşayış mühitindən ayırıb böyük sənaye şəhərlərinə, dünyanın müxtəlif ölkələrinə miqrasiya etməsinə səbəb olur. Bu isə, öz növbəsində parsların öz inanclarından, adət-ənənələrindən qopmasına şərait yaradır. Bu baxımdan, onların sayı sürətlə azalmağa doğru gedir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Бартольд В. В. Сочинения. Т.I. Туркестан в эпоху монгольского нашествия. M.: Наука, 1963. – 763 səh.

2. Парсы и евреи, изгнание и возвращение. Jewish ideas daily. Перевод М. Немцов. 2012.http://booknik.ru/today/from-the-other-side/parsy-i-evrei-izgnanie-i-vozvrashchenie

3. Bharadwaj, Prashant, Khwaja, Asim Ijaz and Mian, Atif R. «The Big March: Migratory Flows after the Partition of India» See an ethnographic account of Delhi refugees in Since 1947: Partition Narratives among Punjabi Migrants of Delhi"

4. Bibliotheca geographorum arabicorum. 1 pars. Abu Ishak al-Farisi al-Istakhri. Viae regnorum. Description ditionis moslemicae. Leiden 1967.

5. ***Denkart.*** Translated by E. W. West, from ***Sacred Books of the East,*** Oxford University Press, 1897. http://www.avesta.org/denkard/dk9sbe.html

6. Dhabhar B. N. ***The Persian Rivayats of Hormazyar Framarz.*** Bombay 1932.

7. Eduljee K.E. Zoroastrian haretage. http://www.heritageinstitute.com/zoroastrianism/ demographics/

8. ***Kār-nāmag ī Ardašīr.*** Translated by Darab Dastur Peshotan Sanjana, B.A., 1896. http://www.avesta.org/mp/karname.htm

9. Khorda Avesta. By Joseph H. Peterson 2002. - http://www.avesta.org/ka/niyayesh.htm

10. Hinnells John. The Zoroastrian Diaspora: Religion and Migration. Oxford: Oxford University Press, 2005. - 865 s.

11. Hodivala S.K. Parsis Of Ancient India 1920.

12. İslam ansiklopedisi. https://islamansiklopedisi.org.tr/

13. Mahmud Kaşqari. “Divanü Lugat-it-Türk” 3 cilddə, Bakı “Ozan” 2006.

14. Quintana-Murci L. Where West Meets East: The Complex mtDNA Landscape of the Southwest and Central Asian Corridor. American Journal of Human Genetics 74 (5), 2004, s. 827-845. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC1181978/

15. Safran W. Diasporas on Modern Societies: Myths of homeland and return. Diaspora: A Journal of Transnational Studies, volume 1, number 1, spring 1991, s. 83-99.

16. Saioa López, Mark G. Thomas and other. The genetic legacy of Zoroastrianism in Iran and India: Insights into population structure, gene flow and selection. Now published in The American Journal of Human Genetics 101, s. 353–368, September 7, 2017 doi: 10.1016/j.ajhg.2017.07.013. - https://www.cell.com/ajhg/pdfExtended/S0002-9297(17)30291-4

17. Schaeder H. “War Daqīqī Zoroastrier?” in ***Festschrift Georg Jacob***, Leipzig, 1932, s. 288-303.

18. Shahnameh - https://www.sattor.com/english/Shahnameh.pdf

19. Soli Jehangir Sorabjee. The Laws of Press Censorship in India. 1976.

20. *Taraporevala S.* Zoroastrians of India. Parsis: A Photographic Journey, *Bombay: Good Books 2000. 252 səh.*

21. The Qissa-i Sanjan. Translated by Shahpurshah Hormasji Hodivala M. A. Bombay, 1920, s. 92-117. Electronic edition prepared by Joseph H. Peterson 2000.

22. The Bundahishn ("Creation"), or Knowledge from the Zand. Translated by E. W. West, from ***Sacred Books of the East,*** volume 5, Oxford University Press, 1897.

23. Zand-Akasih İranian or Greater Bundahishn. Transliteration and translation in English by Behramgore Tehmuras Anklesaria M.A. Bombay 1956. http://www.avesta.org/mp/grb.htm

**Рауф Тофиг оглы МАМЕДОВ**
Западно-Каспийский Университет
кандидат философских наук, доцент

## ГЕНЕЗИС И ИСТОРИЯ ЭМИГРАЦИИ ПАРСОВ

**Резюме:** В статье рассматриваются история иммиграции парсов (зороастрийцев) в Индию и основные причины иммиграции, формирование общины парсов и факторы, обеспечивающие их

историческое единство, социально-исторические сходства парсов и евреев, роль персов в процессе модернизации в Индии и взаимоотношения англичан с персами, их демографическая структура и уровень естественного прироста. Также на уровне исторических фактов и генетических исследований анализируется вопрос об этническом происхождении парсов, исследуется этимология понятия парс.
**Ключевые слова:** Индия, парсы, зороастризм, культура, диаспора, религиозная община.

**Rauf Tofig MAMMADOV**
Western Caspian University
PhD in philosophy, associate professor

## THE GENESIS AND HISTORY OF THE PARSIAN EMIGRATION

**Summary:** The article deals with the history of the Parsi immigration to India and main reasons of it, formation of the Parsi community and factors ensuring their historical unity, socio-historical similarities of the Parsis and Jews, role of the Parsis in the modernization process in India and relationship of the English with the Parsians, their demographic structure and level of natural growth. The issue of the Parsi ethnic origin is also analyzed at the level of historical facts and genetic research. An etymology of the Parsi concept is investigated as well.
**Key words:** India, Parsi, Zoroastrianism, culture, diaspora, religious community.

**Daxil olub:** 02.07.2021